

Əli Kərimbəyli, 1951-ci ildə anadan olmuş,BDU-nun filologiya fakültəsini bitirmiş, ”Azərbaycanfilm” kino studiyasında, Azərbaycan Yazıçılar Birliyində müxtəlif vəzifələrdə işləmiş, hazırda AMEA Folklor İnstitutunda elmi işçidir.

# Xakas Folkloru və “Altın-Arığ” dastanı

Açarsözlər;tenqri,kazbek,saqay,sibirşünaslıq,alıptığ-nımax, katanov,xay, komıs, ad vermək.

## 1. Etnonim etimoloji aspektdən-“Xakas” tayfa adı üzərinə.

Sibir bölgəsi, xüsusilə Altay-Sayan-Alatau dağlarının yaşıl qucağında və aylı gecələrin gümüş kəməri Yenisey çayı sahillərində (bu çayın qədim adı-Uluq-Həm çayı olmuşdur) yerləşən və RF-yə bağlı özirq Xakas Respublikası çağdaş xakas xalqının tarixi vətənidir. Min illərin tarixi keşməkeşindən keçib gəlməyi bacaran xakaslar bəzi salnamələrdə, mənbələrdə- QIRĞIZ və ya YENİSEY QIRĞIZLARI adı

ilə qeyd olunmuş. Bizim eradan əvvəl II əsrdə qədim çin qaynaklarında ilk dəfə -“ XAKAS ”-etnonimi türk tayfa adı kimi keçmişdir (1).Xakas türk xalqının etnoqenezisində kiçik ketdilli samoyid və uqor tayfalarının bu və ya digər dərəcədə iştirakı olmuşdur. Ancaq qədim prototürk tayfalarının köç hərəkatının xəritəsini dərindən izləsək açıq görərik ki, əslində ketdilli samoyid və uqor tayfaları kimi keçən bu tayfalar prototürk(protohun) zamanından qalmış Altay ailəsinə məxsus türk mənşəli tayfaların Tayqanın dərinliyində məişət səviyyəsində qalmış bu günkü qalıqlarıdır.Dolayısıyla bu mənim qədim köç xəritələri üzərində vizual müşahidəmdən gəldiyim şəxsi qənaətimdir. Bu fikirlə barışmaq və barışmamaq sizin haqqınızdır.Əminəm ki, təhtəlşüurla və fəhmlə gələ bildiyim bu qənaətimin doğru olduğunu ən bəsit araşdırma belə ortaya çıxaracaqdır. QIRĞIZ və XAKAS etnoniminin mənşəyi və semantik məzmununda iki türk qəbiləsinin adı fonetik təhriflərə məruz qalsada özünün TÜRK mənşəyini aydın göstərməkdədir.QIR-QOR VƏ QUR-un (TAN,TENQRİ (bu da “tan” və “qor”-dur)GÜN, GÜNƏŞ, OD) fonetik variantıdır.ĞIZ-isə, KAS-ın fonetik təhrifə məruz qalmış variantıdır(KAS-göy sak-dan gəlir). Göy Türk boylarından Göy\\Kay\\Xay\\Hay\\Ha-Xa; Göy Sak Türk boylarından isə səs düşümü hadisəsi nəticəsində, dediyimiz kimi Göy+Sak kar və cingiltili səslərin ahənginin təsirilə = KAS- olmuş, sonralar-KAS gəlib HA-ilə birləşərək HA (XA)-KAS adı almışdır.Etnik Türk tayfa-qəbilə adlarının yaranması prosesində hər zaman mifik təsəvvürlər, kosmoqonik və astral düşüncələrin üstün mövqedə dayanmasını nəzərə almaq vacibdir.Bu zaman astral və kosmoqonik şüur formalarının özünəməxsus metodla kainat sirrlərini gizləmək və ya şər Ruhdan qorumaq məqsədilə adlar və ya bəzi sözləri güzgü əks etməsi metodu ilə əksinə yazmış, söyləmiş, oxumuşlar; qam-maq; kas-sak,şumerlərdə tanrı adı AN (ana)-Na(nana-nənə)və ya ANNA və s.Etnonimlərin bu halda birləşməsi və formalaşması-yeni adların meydana çıxmasının səbəbləri çox olsa da belə əsas səbəbin mifik düşüncə olması ilə yanaşı,digər səbəblərin də ictimai təlatüm və müharibələr,etnik və qeyri etnik toqquşmalar, tayfaların yer dəyişməsi kimi hadisələrin də təsiri olur.(KDQ,MANAS, KOROĞLU,NART, ALTIN-ARIĞ, ALPAMIŞ,

MADAY-QARA və s. bu qəbildən olan eposlarda yalnız türk boyları biri-birilə vuruşur,dartışır,savaşır.). Bütün digər amillər və təfisilatlar məhz bu amildən sonradır.Məsələ burasındadır ki, KAS-sözünün də semantik məzmununda Göy+Sak-iki türk sözü ifadə olunmaqdadır.Zamanla fonetik yuvalar sıxılmış,ö və y-səsləri düşmüş(Ö və Y-səsinin düşməsini şərtləndirən əsas amillərdən biri də ö-səsinin incə olması,y-səsinin isə yarımsonor səs olmasıdır.), G-səsi SAK-dan S-ilə birləşib qalın K-ya və ya sonralar kar-X-ya çevrilmişdir;GöySak//-KOS//SAK;KASSAK//QAZAK//QAZAX-şəkilinə düşmüşdür. Göy Sak sonrakı fonetik variantlarda məxrəcə yuvarlanaraq, qısa səslənmədə bədrlənmiş KAS forması almışdır. Xəzər gölünün başqa adının Kaspiy olması da KAS BƏY-dən gəlir. Diqqət etsək görərik ki, XƏZƏR-adı belə KASPİY-sözünün fonetik variantıdır.Yeri varkən bir vizual müşahidəmi də qeyd etmək istərdim.AZƏRBAYCAN toponimi də öz məzmununda KAS KAR//QOR PİY\\BAY-QAN//XAN//CAN-tayfa adı və titulunu ifadə etməkdədir.Kaskar sonra KAS+XAR(QOR), KASSAR//KASAR//XASAR, 9-10-cu əsrdə güney Qafqaza sonuncu dəfə kütləvi Oğuz etnik türk tayfaları köçdükdən sonra bizim o zamana qədərki qıpçaq dilimiz Oğuz tayfalarının daha işlək və yumşaq dilinin təsiri ilə daha ahəngdar-harmonik səs sisiteminə daxil olmuş-a-səsləri qapalı-e və açıq-ə səsinə çevrilmişdir. O səbəbdən XASAR//XAZAR//HAZAR, XƏZƏR-şəkilində tələffüz edildi. Xəzər hidronimi əslində öz semantik məzmununda Göy-Tanrı inancını(Göy-Sak) bu gün də hifz etməkdədir. “Xəzər”-dən gələn AZƏR-sözüdə eyni semantik məzmunu-göy tanrı inancına bağlı kosmoqonik təsəvvürü öz etimoliji modelində gizlin şəkildə ifadə etməkdədir.Gördüyümüz kimi Xakas- türk tayfa adı ilə Azər-sözü eyni məzmuna malik olan leksik-morfoloji və fonetik modeldən üzvlənmişdir.Azərbaycan adının – BAYQAN- hissəsi isə eyni fonetik yuvarlaqlaşma əsasında BƏY\\BAY//PAY//PİY-dən AZƏR-etnoniminə birləşmişdir; AZƏRBAY//AZƏRBƏY.İndiki toponimin “Can” hissəsi isə QAN//KAN//XAN//HAN//CAN-dan gəlir. AZƏRBAY+QAN// CAN. Hazirda heca şəklinə düşmüş, keçmiş CAN- sözünün çox mənalı

San//Kan//Qan//Can fonetik bənzəri qədim sanskritdən Darilərə-Perslərə (müasir fars dili məhz o dilin bazasında formalaşmışdır, farslar qədim Hindistanda yaşayan Benqal qaraçı tayfalarından biridir) keçmiş sözdür.Bu sözün bir çox mənaları o cümlədən induslara məxsus induizm-krişnaizm dinində-Ruh mənası bildirsə belə sözlərin hələ omonim çoxmənalılığı dövründə belə ismin cəm şəkilçisi olan –lar//lər mənalarını da ifadə etmişdir. Bu mənada türk sözü olan QAN//XAN fonetik bənzərliyi nəticəsində Səlcuqlar dönəmində farsdilli ədəbiyyata-yazıya keçilərkən Azərbayxan AZƏRBAYCAN şəkilində yazıya keçdi.Xəzər imperiyasından əvvəldən və sonra Xəzər imperiyası dövründə Dərbənddən Ərdəbilə qədərki coğrafiyanın adını ifadə edən və qədim türk tayfalarına mənsubluğunu öz məzmunundа izah edən AZƏRBAYCAN etnonimi coğrafi ərazi adını bildirməklə yanaşı Azərbaycan (Azərbaylar) yeni məna kəsb etməyə başladı.Yəni xan//qan sözü öz ilkin mənasından fars yazısının təsiri ilə uzaqlaşdı və"lar//lər"mənasını əxz etdi.Fars-ərəb mədəniyyətinin islam aləmində dominant xarakterinə uyan dilçi alimlərimiz tələskənliyə yol verib Azərbaycan (Hazarbaykan) toponimini bütünlüklə fars kökünə-mənşəyinə bağlamağa başladılar.Azərbaycan yer adının nə fars "azərisi" ilə, nə "atropatenlə", nə ərəb "adərbayqan"ı ilə, nə də bəzi psevdo tarixşi üzdən iraq alimlərimizin mənsubluğu məlum olmayan mənbələrə iddia etdiyi kimi "atropatakan"-la heç bir əlaqəsi yoxdur. Daha diqqətlə yanaşılsa, o alimlər görər ki,"adərbayqan və atropatakanlar" və s.bu kimi fonetik təhriflə tələffüz edilən sözlər tarixən etnik türk xalqlarının adlarını öz dillərinin fonetik-morfoloji qaydalarına uyğun yaziya alarkən bu adı ya bilərəkdən ya də bilməyərəkdən təhrif etmiş, mübahisəli variantlara yol açmışlar.Daha sonralar Xəzərlə-Baycan birləşdikdə, Xəzərbayqan//Xazarbaycan tələffüz edildikdə X-səsi yumuşalmış-H-ya keçmiş, Oğuz dilinin tonal tələbləri nəticəsində Ahəng qanunun təsiri ilə sabitləşmə dövrünə keçdikdə H-səsi tələffüzdən çıxmış, (bax;SAK-OT\\Odlu\\saxatlı-SAATLI toponiminə-burada da x-h-ya keçmış, sonra-h-səsi düşmüşdür-beləcə bu gün tanıdığımız Saatlı toponimi əmələ gəlmişdir.) və beləliklə, AZƏRBAYCAN toponimi daşlaşmış və

Dərbənddən Urmiya-Ərdəbilə qədərki cöğörafiyanın adını ifadə etmişdir.Gördüyümüz kimi Xakas-etnonimindəki KAS-la Qafqazdakı-KAS\\QAZ, Xəzərdəki və ya Kaspiydəki-KAS eyni etnoqrafik-fonetik yuvada formalaşmış, sonralar fonetik üzvlənməyə məruz qalaraq yeni etnonim və toponim kimi ortaya çıxmışdır.Bir kök-söz üzərində belə üzvlənməyə səbəb olan amillərdən biri bəlkədə ən mühümü bu tayfaların köç zamanı müxtəlif dövrlədə müxtəlif yazılara rast gəlməsidir.Məsələ bundadır ki, bir tayfa cənubda, başqa tayfa qərbdə və ya şərqdə öz adlarını qeyri-kamil əlifbalarla yazdırmışdır.Qeyri-kamil əlifbalarla adlarını yazdıran hər bir tayfa-qəbilənin adı təhrif olunmuş ilkin variantda yazı ilə bərkimiş və eləcə təhrif olunmuş adla yaddaşlarda Milli Kimlik surəti qazanmışdır.(Məs.Kuman türkləri-?!) KAF(zirvə,baş)KAS (göy-sak)//KDQ-da Qaz//Kas-lıq dağı, bir sözlə QAF-QAZ da o cümlədən.KAZBEK-də elə;KAZ//KAS; BEK//BEY//BƏY (BƏY-in ilkin anlamı böyük, uca, əzəmətli, hündür-sonra əxz etdiyi mənası isə varlı, dövlətli və s. deməkdir.) Amma “Osetin dilinin etimologiyası” 5-cildlik fundamental əsərində böyük osetin alimi, professor V.Abayev Qafqaz toponimi haqqında yazır ki, “proisxojdeniye neizvestno”- mənşəyi məlum olmayan sözdür.Bu Moskvaya xoş gəlmək üçün antitürk mövqeydir. Buna bənzər münasibəti biz V.Dalın “Canlı rus dilinin izahlı lüğətində”də görürük.V.Dal minlərlə türk mənşəli sözün qabağında yazır ki, “mestnoe nareçie”(“yerli şivə”?!) bilinmir ki, söhbət ruscanın yerli şivəsindən, yoxsa türkcə-tatarcanın yerli şivəsindən, dilindən gedir, maddədən aşkar bilinmir ki, bu söz hansı dilin yerli şivəsidir.(“Незванный гость хуже татарина”- çağrılmayan qonaq tatardan pisdir,”ты татар что ль ничего ni понимаеш”,Tatarsan ki, bir şey anlamırsan? Və s. bu kimi rusca deyimlər məhz o illərin ifadələridir. ) Əgər bu alimlər öz kitablarını Cingiz-Xan dövründə yazsaydılar hətta mənşəyi türk olmayn sözləri belə türk mənşəli yazardılar. XIX əsr ümumiyyətlə velikorusların türkə və tatara eyni dərəcədə nifrət etdikləri bir zaman idi.Türkə nifrət nə qədər əsassız və məntiqsiz olsada, bu turkofob durumu o zamanın siyasi modası idi, çox təəssüf ki, bu gün belə biz bu əsassız nifrət və ya turkofob düşüncə

ənənəsinin bəzən bəsit, bəzən qalın, yoğun izləri ilə rastlaşırıq. Bu o zamanlar hərbi siyasətdə öz əsgərlərinin psixoloji durumunu fəallaşdırmaq, onları ayıq-sayıq saxlamaq üçün bi ideoloji metod idi.Çox yəəssüf ki, bu metodu həyata keçirmək üçün ruslar “düşmən obrazı”nı türkdə görürdü.Məncə turkafob düşüncənin tarixi-siyasi səbəbi budur ki,Şərqi və Qərbi Avropa torpaqları- daha doğrusu bütün Avropa qitəsi b.e.VII-VIII əsrinə qədər qədim göytürk-hun-sak-yak-qıpçaq(köpsak)-oğuz qəbilə və qəbilə birləşmələrinə bu toraqlarda qurduğları xanlıqlara və dövlətlərə məxsus olmuşdur. Qərb öz fəhmaltı yaddaşında bunu bu gün belə yaxşı bilir. Məhz bu səbəbdən bir neçə avropa- balkan və şərqi cənub-şərqi slavyan xalqları Türk xalqları və millətlərinin bu qədim əcdadlarına məxsus olan torpaqlara yeni iddia etməməsi və edə bilməməsi üçün turkafob idealojini öz ictimai münasibətlərinə, sosial siyasətlərinə pərçim etmişdir. Qərb bu gün o ideyalarla (turkofob) siyasi “alver edir.” Mütərəqqi ziyalılar isə hər zaman olduğu kimi haqqın tərəfindədirlər. Məsələn dünya şöhrətli, Nobel mükafatlı türk kökənli rus yazıçı Mixail Şoloxov (şol-ox,?!) ana-ata xəttinin türk soyundan gəlməsilə açıq fəxr edirdi.Anası qaraçay boyundan atası isə kuman (koz-aklardan,bir hissəsi katolik məzhəbini qəbul edən göy türklər, bir hissəsi- ortodoks-provoslav məzhəbini qəbul edən göy-türklər və dəşti-qıpçaqlar, müasir ukrayna xalqı və rus kazakları olaraq assimiləyə məruz qaldılar; məs: Qaqauzlar-Göy Oğuzlar dincə xristianlaşdılar (ortodoks), dilcə öz türklüklərində qala bildilər.) kazaklarının soyundan gəlirdi.

Beləliklə,Göy Türk, Göy Sak, Göy Oğuz qəbilələrinin və digər kiçik türk tayfalarının ayrı-ayrı boylarının birliyindən tarixən formalaşan yeni millətin adını rus transkripsiyasında Xakas yazmışlar. Burada iki adın əvvəlində gələn GÖY sözünün biri digərini fonetik məxrəcə yuvarlatmışdır. **Hazırda Xakas xalqı Saqay, Beltir, Kaç və ya Kaas, Koybal, Kızıl, Şor, Kamasin, Çolım və Çat adlı böyük və kiçik tayfalardan-boylardan ibarət olmaqla müasir-çağdaş xakas millətini oluşdurmuşdur.**(2),Bu Türk boylarının dili və ümumən Xakas millətinin müasir dili Şərqi Hun budağının uyğur-oğuz qrupunun Xakas yarımqrupuna daxildir (Baskakovun bölgüsü üzrə). Tarixi

təbəddülatlara və ziqzaqlara rəğmən velikorus şovinizminin slavyanofil assimilə siyasəti və xristianlaşdırma basqılarından gələn təzyiqləri altında qalan bu türk xalqı öz ağrılı həyatını yaşamaqda eyni zamanda inkişaf etməkdədir. Maraqlidir ki, müxtəlif dini konfessiyaların(provoslav, katolik,musəvilik,islam,tenqrianstvo-şamanizm) xakaslar arasında inkişafına baxmayaraq, xakas gəncləri arasında tanrı-tenqrilik dininə meyl artmaqdadır.Əslində gənclərin düşündüyü yeni dini modeldə tanrılıq dini mahiyyətcə şamanizm dininə müncər edilərək inkişaf edir.

## 2. Xakas folkloru ilə tanışlıq tarixi haqqında

Xakas folklorunun ilk dəfə toplanması və nəşri XVIII əsrdən başlanır. **Folklor toplayıcıları Xakas folklorunun toplanması və nəşri tarixini 3 mərhələyə ayırırlar;**

**1-ci mərhələ XVIII əsri (1721-dən);**

**2-ci mərhələ bütütünlüklə XIX əsri;**

**3-cü mərhələ isə XX əsri, bu günə qədərki dövrü əhatə edir.**

**Birinci mərhələdə** Xakas xalqına məxsus bəzi miflər, əfsanələr, nağıllar,tapmacalar və rəvayətlər toplanmış və yazıya alınmaqla və qismən nəşr olunmaqla səciyələnmişdir.Bu işlə məşğul olan şəxslər əsasən səyyahlar, sürgünə göndərilmiş rus ziyalıları, çar zabitləri, əsir düşmüş xarici ordu zabitləri, bir də az sayda tarixçi-etnoqraf alimlər olmuşdur. Səyyahlar və tarixçi-etnoqraf alimlər toplayıb nəşr etdirdikləri əsərlər-miflər, əfsanələr, rəvayətlər vasitəsi ilə Peterburq və Moskvanın mədəni cəmiyyətinə Sibirin bu bölgəsində yaşayan Xakas xalqının bədii-əsatiri düşüncəsi, poetik zövqü, mədəni özəlliyi haqqında məlumat vermək, onları tanış etmək istəmişdirlər. 1724-cü ildə çarın fərmanı ilə rusiyada Elmlər Akademiyası açıldı. Elmlər Akademiyası açılandan sonra Sibir xalqlarının, o cümlədən xakasların tarixinə, şifahi

ədəbiyyatına, etnoqrafiyasına, məişət və digər özəlliklərinə həm elmlər akademiyasının, həm də Rus Coğrafiya Cəmiyyətinin üzvü olan ziyalılar ciddi maraq göstərir onlarla məşğul olurdular. Onlar Xakas xalqının poetik –şifahi və mənəvi mədəniyyət abidələrini toplayır, nəşr edir, o nümunələrdə ifadə edilən bədii xüsusiyətləri həmçinin folklor materiallarının fəlsəfi –idraki əhəmiyyətini yüksək qiymətləndirirdilər.

1721-22-ci illərdə cənubi sibirin bu bölgəsinə alman təbiətşünası D.Q.Messerşmitd gəldi. Messerşmitd bu ölkənin coğrafiyası, tarixi, etnoqrafiyası, şifahi ədəbiyyatı haqqında material toplayırdı.O, 1721-ci ildə Uybat çayının kuzey sahilində hündür bir daş abidə tapdı.Bu daş abidə bütün dörd tərəfindən naməlum " yazılar-işarələrlə" örtülmüşdü.Sonra məlum olacaq ki, qədim türk dili və tarixi üçün müstəsna əhəmiyyətə malik olan bu daş Orxon-Yenisey abidələri silsiləsinə daxil olan məşhur Yenisey abidələrindən biridir. O, xakasların torpaqlarını Şimal müharibəsi zamanı ruslara əsir düşmüş və burada öz hərbi əsir həyatını yaşayan İsveç zabiti F.İ.Tabbert-Stralenberq ilə birlikdə gəzmişdi.F.İ.Tabbert-Stralenberqin yazıya aldığı poetik- folklor materialları arasında Ara tayfasının həyatı və çoxsaylı ilan ordusuyla döyüşü təsvir edilir. O, mətni almanca yazmışdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki,Ara tayfasının ilan ordusuyla müharibəsi haqqında əfsanəni başqa alman alimi Q.F.Miller də 1733-34 – cü illərdə 2-ci Kamçatka ekspedisiyasında iştirak edərkən yazıya almışdır.Sonralar bu əfsanə N.F.Katanov tərəfindən yazıya alınmış və 1907-ci ildə ( 541 səhifə ) toplayıcının tərcüməsində rusca çap olunmuşdur. 2-ci Kamçatka ekspediyasının tərkibində Rusya Elmlər Akademiyasının digər üzvləri ilə bərabar o dövrün görkəmli alimləri- V.N.Tatişşev, İ.E.Qmelin, Y.İ.Zindenau da iştirak etmiş və xakaslara məxsus olan folklor-etnoqrafik materiallar toplamışlar. Alman-rus-isveç-fin alimlərinin sibirdə yaşayan bu türk xalqlarının tarixi, maddi-mədəni irsi, coğrafiyası, şifahi ədəbiyyatı və etnoqrafiyası haqqında topldığları və araşdırdığları, tərcümə edib nəşr etdikləri əsərlər sayəsində rusyada yeni elm sahəsi- **sibirşünaslıq elmi** üçün baza yaradıldı.Sibirşünaslıq elmini yaradan daha iki böyük alim var idi; İ.Q.Qeorqi və P.S.Pallas. İ.Q.Qeorqi " Opisanie vsex v rossiyskom

qosudarstve obitayuşşix narodnostey” (“ Rusya dövləti ərazisində yaşayan bütün tayfaların təsviri ”) adlı əsəri ilə P.S.Pallas isə “ Putişestvie po raznim provintsiyam Rossiyskoqo qosudarstva” (“ Rusya dövlətinin müxtəlif vilayətlərinə səyahət ”) adlı əsri ilə birinci mərhələni mükəmməl şəkildə bağladılar.Tarixi zərurət sonra işi elə gətirdi ki, sibirşünaslıq elmi ilə şərqşünaslıq elmi rusyada eyni forma və mündəricədən qaynaqlanaraq eyni vaxtda təşəkkül etdi və tədricən yeni yaranmaqda olan **türkologiya elmi də həm sibirşünaslığın, həm də şərqşünaslığın tərkib hissəsinə çevrildi.** Sibir o cümlədən xakas türklərinin poetik və qeyri poetik folkloru, etnoqrafiyası, tarixi və maddi-mədəni irsinin öyrənilməsinə maraq getdikcə artmaqda idi. Belə ki, xakaslara məxsus mənəvi mədəniyyətin elmi-tədqiqata cəlb edilməsi prosesinin davamı bu reqionu öyrənmənin, elmi əlaqələrin və tədqiqatın 2-ci mərhələsini- bütünlüklə XIX əsri əhatə etdi.

**2-ci mərhələdə** həm sibirşünaslıq, həm şərqşünaslıq, həm də türkologiya daha geniş inkişaf pilləsinə keçdi.Bu mərhələ toplanan folklor mətnləri,etnoqrafik məlumatlar dərin təhlillərdən keçir, ümumtürk kontekstində elmi-tədqiqata cəlb olunması və yeni alimlər nəslinin yetişməsi, formalaşması ilə səciyyəvi özəllik kəsb edirdi. Onu da nəzərə almaq yerinə düşərdi ki, məhz bu mərhələdə həm sibirşünaslığığn, həm şərqşünaslığın eyni zamanda predmeti olan türklük bilikləri dünya ictimai elmlər ailəsinə türkologiya adı ilə daxil oldu və yeni elm sahəsi bir çox görkəmli alimlərin fədakar zəhməti sayəsində təşəkkül tapdi.Belə görkəmli alimlərin sırasında fin linqivist, etnoqraf, türkoloqu M.A.Kastreni, alman türkoloqu V.V.Radlounu (3) , Q.F.Milleri, Rus Coğrafiya Cəmiyyətinin fəal üzvü N.A.Aristovu (4), qazax Ç.Valixanovu, Q.Potanini (5), N.Katanovu, İ.İ.Karatanovu, V.Titovu,və soydaşımız oğuz türkü Mirzə Kazım bəyi xüsusi hörmətlə yad etməliyik. Məhz oğuz-azərbaycan kökənli Mirzə Kazım bəy və oğuz-uyğur-xakas kökənli N.Katanaov tipli alimlər çar rusyasında şərqşünaslıq elminin-əslində o cümlədən türkalogiya elminin sağlam təməllər üzərində əsasını qurdular.Bu zamandan etibarən folklor-etnoqrafik, tarixi-coğrafi, tətbiqi sənət və qayaüstü rəsmlər, folklor musuqisi, mərasim-ayin və təqvim bayramları haqqında əldə

edilən,toplanan, tədqiq edilən materialların nümunələrinin məhz o zaman aspektindən sistemli öyrənilməsi, intensiv araşdırılması, humanitar-filoloji elmin ayrı-ayrı sahələri ilə elmi-tədqiqatların differensiasiyası başlandı.

Xakas folkorunu toplamaq və öyrənmənin **3-cü mərhələsi** XX əsrin əvvəlindən bu günə qədərki dövrü əhatə edir. Əsrin əvvəlindən başlayan rus-yapon müharibəsi, I Dünya müharibəsi,oktyabr sosialist inqilabının baş tutması, çarın devrilməsi, vətəndaş müharibəsi,SSRİ-nin yaranması, sonra öz xalqına qarşı qanlı sovet repressiya illəri, daha sonra II Dünya müharibəsi, ictimai-siyasi fəsadlara məruz qalan sovet xalqları ailəsi ilə birlikdə xakaslar da ağır,sıxıntılı, rejim həyatı yaşamağa məcbur olmuşdular. Ona görədə XX əsrin 1-ci yarısına nisbətən 2-ci yarısı-xüsusilə, Böyük Vətən müharibəsindən sonrakı illər xakas folklor mədəniyyətinin toplanması və öyrənilməsi, tədqiqatın inkişafı baxımından daha məhsuldar olmuşdur.

Burada artıq xakas millətindən olan vətənsevər alimlərin də elmi hərəkata qatılmasını, doğma mədəniyyətini doğma dilində araşdırmasını vurğulamaq vacibdir.Son illərdə humanitar elmləri araşdıran alimlərdən-türkoloq-folklorşünaslar, linqivistlər, etnoqraf -lar, tarixçilər, arxeoloqlar, filosoflar, ədəbiyyat nəzəriyyəçiləri, xüsusilə mətnşünas alimlər-L.Kızlasov,İ. Kızlasov, Y.Şer, D. Savinov, A.Konutov, S.Orus-ooqo, A.Kudiyarov, L.Arbaçakov, O.Subrakov, Z.Kazaqaçev, N.Çistobayev, və s.tədqiqatçılar V.Y.Maynoqaşeva və T.Q.Taçeevanın başladığı işi onlardan öyrənməklə yüksək peşəkarlıq və dərin vətənpərvərlik eşqi ilə davam etdirirlər. Artıq milli kadrların da yaxından iştirakı sayəsində türkoloq-folklorşünaslar bahadırlıq eposu olan **“ Altın-Arığ”, “ Albınjı” (“ Xulatay”), “ Xan Kiçiqey”, “ Gümüş qanadlı mavi-boz atlı Kün-Tenqis”, “ Ağ-Çibek-Arığ ”, ” Xulatay və Qulun Taycı ”, “ Altın -Sabah”, “ Qırmızı tülkü Alp-qız ”, “ Üç dəfə evlənən Xan-Mirqen”, “ Ay-Arığ ”, “Ay-Xuuçın ”, “ İzer-Qara-Qız...”, “ Izil-Arığ ”, “ Kor Xan-Mirqen”,”Pis-Tumzux-Plö-Xarına evlənmiş Küreldey”, “ Dombalangöz Pora-Ninçi ”, “Altın-Tayçı”**-və digər bu kimi əsərləri toplamış, kommentariyalarla paytaxt Ağban

(Abakan) da çap etmiş, bir çox dastanlar haqqında namizədlik, doktorluq dissertsiyaları yazmışdırlar.Bunların sırasında başqa bir qəhrəmanlıq dastanı olan**”Ay-Xuuçın”-alptığ-nımaxı** V.Y.Maynoqaşeva məqaləsi, kommentariyaları, dil özəllikləri ilə birlikdə orjinal mətni rus dilinə filoloji tərcümə etmiş və nəşr etdirmişdir. Burada qeyd etmək lazımdır ki, **“Altın-Tayçı”** qəhrəmanlıq dastanını 1973-cü ildə alıptığ-nımaxçı Yevdokiya Nikitiçna Kulaqaşevadan Z.İ.Kulaqaşeva yazıya almış, çapa hazırlamış və Ağbanda nəşr etdirmişdir**.”Altın-Çüs”** qəhrəmanlıq dastanını Semyon P.Kadışevin söyləyişindən V.İ.Domojakov yazıya almış,Vladimir Solouxin isə ruscaya çevirmiş və 1987-ci ildə Abakanda nəşr etdirmişdir.Sevindirici hal bir də ondan ibarətdir ki, milli xakas kadrları öz xakasca folkloruna qayğını artırmışlar.Son illərdəXakas türklərinin qəhrəmanlıq dastan - larından **“Xan-Tönis”**i ifaçı-söyləyici Moisey R.Bayinovdan Natalya M.Ağbaşev yazıya almış, ruscaya çevirmiş və 2007-ci ildə Novosibirskdə nəşr etdirmişdir.Ondan bir il öncə **“Xuban-Arığ”**qadın qəhrəmanlıq eposunu Semyon İ.Şulbayevdən Alevtina K.Maytakov yazıya almış, onu Timur B.Davletov Türkiyə türkcəsinə çevirmiş, giriş məqaləsi yazmış və qapağını tasarımlamış, TÜRKSOY-un xətti ilə 2006-cı ildə Ankarada dərc etdirmişdir.Bu gün də Xakas folklorunu T.Q.Taçeeva və V.Y.Maynoqaşevanın tələbələri uğurla, məsuliyyətlə toplayır, çapa hazırlayır dövrü mətbuatda dərc edirlər.Son illər “Altın-Arığ”ın tədqiqat arealı RF,Türkiyə, Azərbaycan Respublikasından daha uzaqlara genişlənməyə başlamışdır.”Altin-Arığ” üzərində tədqiqat işi bu gün Macarstanda davam etməkdədir.Budapeşt Dövlət Universitetinin Türkologiya kafedrasının professoru Şamfai Xara David xakas dili və folklorunu, o cümlədən “Altın-Arığ”eposunu tədqiq edir, dastanı macar oxucular arasında təbliğ edir(“Xakas Çiri” (Xakas Yeri) respublika qəzeti, 1998. və “Xakasiya”qəzeti,14.01.2010).2000-ci ildə İtaliyanın Neopol şəhərində “Altın-Arığ”və xakas folkloru haqqında “Altın-Arığ”adlı 180-səhifəlik monoqrafiya nəşr edilmişdir.

Xakas folklorunda ən geniş yayılıan janr- xalq arasında “alıptıx nımax” və ya “çaalıq nımax” adlandırılan, döyüşlər və müharibələr mövzusunda olan qəhrəmanlıq və ya bahadırlıq dastanlarıdır.

Qəhrəmanlıq janrında söylənən dastanlar daha çox Qızıl boyunda zəngin və rəngarəng olsada, digər boylarda məsələn, Saqay, Kaçin, Şor, Koybal və s. xakas boylarında da məşhurdur. Bununla yanaşı ictimai problemlər, iqtisadi sıxıntılar dolayısıyla folklora azalan marağı nəzərə alaraq B.E.Maynoqaşeva qeyd edir ki,bizim zamənəmizdə epik ənənələr dağılıb söndükcə dastan söyləyicilərinin-xaycıların sayı da sürətlə azalır. Bu fikirlər sovet dövründə, kommunist ideoloji basqısı və təsiri altında deyilmişdir. Əslində “epik ənənələr dağılıb sönmürdü”,sovet ideologiyasının məkrli semantikası altında velikorus millətçiliyi məxfi formalarda antitürk istiqaməti izləyirdi.Bu istiqaməti və məqsədi saxta beynəlmiləlçilik şüarları altinda və gizli polis orqanlarının (KQB) hədə-qorxuları ilə ört-basdır edir, ümumtürk mədəniyyəti əleyhinə, ortaq türk bütövlüyü əleyhinə gizli basqı yapırdılar.Ona görə antitürk gizli basqı haqqında düşüncələrini və məlumatları B.E.Maynoqaşeva açıq deyə bilməzdi. (6).Çox təbii ki, bu gün də elədir.

## 3. **Xay, xayçı, komıs...**

**Xay (Hay)-xakaslar boğazın dərinliyindən ,udlaqda, qırtlaqdan keçərək formalaşıb gələn səsə belə deyirlər. Xaycı, bu səslə oxuyan şəxsə deyirlər**.Yeri gəlmişkən qeyd etmək lazımdır ki,”şifahi ənənədə (folklorda) söyləyicilik( xakaslarda xaylamaq-haylamaq-Ə.K.) və ifaçılıq yaxın anlayışlar olsa da mətn tipi və icra ortamının (auditoriyanın) dəyişkənliyi həm də bu anlayışların ayrı-ayrı mənalar daşıdığını ortaya çıxarır. Probleme ozan kökənli sənət hüdudundan baxsaq, onda görərik ki, bu miqyasda “söyləyici” və “ifaçı” sinonim anlayışlardır və məqamından asılı olaraq, birini digəri ilə əvəzləmək

olur.Məsələn aşıqlar dastanların ( məhəbbət, qəhrəmanlıq, ailə-məişət) nəsr hissəsini şifahi şəkildə söyləyir, nəzm hissəsini isə sazın (əskidən qopuzun,çoğurun) muşayəti ilə ifa edirlər(akın-qazax; baxşı-özbək; manasçı-qırğız; və başqa türksoylularda demək olar ki, gedişat eynidir. ) AMEA Folklor İnstitutunun əməkdaşı Atəş Əhmədlinin "Söyləyici və janr problemi: tarixi-ənənəvi aspekt və hazırki durum" (Dədə Qorqud, 2009,say-3,səh.79.) məqaləsindən aldığım bu nəzəri-praktiki fikir söyləyicilik sistemində epik janrın mühüm xüsusiyyəti olaraq Xakas xayçılarının xay sənətinə bütünlüklə şamil etmək olar.Sadəcə, xakasların epik ənənəsində qəhrəmanlıq dastanlarının hamısı bir qayda olaraq nəzmlədir, o dastanlarda nəsr hissəsi olmur. Xakas xayçıları da çatxan və komıs adlı kiçik həcmli musiqi alətlərinin müşayəti ilə xay (hay) söyləyir, çatxanda ifaçı rolu oynayır, xayda isə söyləyici olaraq bütöv sənətkar obrazında auditoriya qarçısında çıxış edir. Dolayısıyla mənəvi mədəniyyətin müxtəlif türünü sintez edir, yeni mürəkkəb sənət növü yaradır. Xay səslə oxumaq və ya xaycı olmaq xüsusi istedad və qabliyyət tələb edir**. Xaycı fenomenal yaddaşa sahib olmalıdır; o, həm minlərlə misradan ibarət olan dastanı obrazlaşdırmaqla, emosiyalarla əzbərdən söyləməli, həm də udlaq-boğaz səslə ahəngdar ritmdə oxumalıdır**. Bundan başqa xaycı bizim aşıqlar kimi Çatxan adlı kiçik simli musiqi alətilə özü-özünü oxuyarkən müşayət etməlidir. Amma sazın forması və həcmi ilə çatxan müqayisə olunmaz, çatxan çox kiçikdir. Qədimdə xakaslar qəhrəmanlıq dastanlarını ifa edərkən xomısdan istifadə etmişdilər. Xomıs da çatxan kimi kiçik iki simli musiqi alətidir. Xomıs –bu musiqi aləti Azərbaycanda Qopuz Qax-Balakən reqionunda yerli şivədə isə ona Dombra da deyirlər.Xomıs və Qopuz ad ümumiliyində birləşsələrdə, hər ikisi simli musiqi aləti olsa da, şəkili və formasına görə ciddi fərqlənir; Qopuz qismən saza, uda bənzədiyi halda**, Xomıs sazın, tarın və ya udun qolundan ayrılmış- 30-35 sm-lik bir parçaya bənzəyir.** Xakaslar belə bir musiqi alətinin ritmik sədaları altında bahadırlıq dastanlarını ifa edirlər. **Xakaslar belə dastan ifaçısına qəhrəmanlıq mövzusunda dastan hayladıqlarına-söylədiklərinə görə "xaycı-nımaxçı" deyirlər**.Azərbaycanda aşıqlar

dastan ifa edərkən nəğməni, musiqini və rəqsi birlikdə ifa edir, artıq təkmilləşmiş bir sinkretik sənət nümunəsi yaradırlar, ancaq xakas xayçı-nımaxçıları dastan ifa edərkən rəqs etmir.Ciddi müşahidə etdikdə, paralellər və təhlilləri vizual şəkildə apardıqda belə xayçılıq və aşıqlıq sənətinin eyni kökdən-Şaman mədəniyyətindən gəldiyi açıq-aşkar görünür. Bu sıraya muğamı da aid etmək olar. Maraqlıdır ki, xakas xayçı-nımaxçıları çatxanla və ya komısla qəhrəmanlıq dastanlarını ifa edərkən**, əsasən "Şur" muğamının ladı üzərində oxuyurlar. Xayçı-nımaxçıların oxuyarkən səs çalarları və improvizasiya üsullarını əks edən not yazısında şur ladı qeyd olunmuşdur.** Bu sadə faktın özü belə bir zamanlar Azərbaycana muğamın farsdan, ərəbdən, hinddən gəldiyini iddia edən kosmopolitlərin əsassız olduqlarını, səhv etdiklərini sübut edir. Demək, muğamın da ortaq Xayçılıq, Baxşılıq, Aşıqlıq, Ozanlıq və s. kökü-birbaşa, bir mənalı şəkildə ümumən Şaman mədəniyyətinə bağlanır.Sonralar bu sənət növləri dəyişik adlar və şəkillərdə şaman kökündən üzvlənib ayrılmış, müstəqil inkişaf yolu tapmışdır.

Xaycı-nımaxçılar, bizim aşıqlar kimi əhali arasında böyük hörmətə malikdir.Bizim aşıqlar, əsasən toylarda el şənliklərində, məclislərdə oxuyur, dastan söyləyilər. Xakaslarda isə bu məsələ bir az fərqli olur.Xayçı-nımaxçıları dinləmək üçün xüsusi gecələr təşkil edilir, xayçı səhərə qədər xay söyləyir-qəhrəmanlıq nəğmələri oxuyur, ora toplanan xay həvəskarları isə onları böyük zövqlə dinləyir. Dastanı söyləməyin bir başqa forması-onu çatxansız və ya xomıssız söyləməkdir.Bunu adətən qadın xaycı-nımaxçılar edir. Dastanın bu qaydada söylənməsinə-çazaq ( piyada ) deyirlər-yəni musiqinin müşayəti olmadan sadə ifa edilir. Xakas epik nəğmə- dastan söyləyiciliyi-xayçılığ sənət növü kimi tarixini nə zamandan başladığı məlum deyil. Nəsildən-nəsilə ötürülən bu sənətin kökünün hər halda Şamanizmdən gəlməsi şübhəsizdir. Məlum olan konkret tarix isə budur ki ;XIX əsrin II yarısı-XX əsrin I rübündə Qızıl tayfasından çıxmış məşhur xayçı-nımaxçı Qara Matpıy Balaxçin "Altın Arığ"qəhrəmanlıq eposunu gözəl ifa etmiş, xalq arasında geniş hörmət qazanmışmış. Ondan bir az sonra yenə Qızıl tayfasından çıxmış Nestü adlı bir xayçı-nımaxçı "Altın Arığ"ın

gözəl ifaçısı olmuşdur. Hər iki ifaçı-sənətkar yaxın zamanlarda yaşasalar da onların mühütü haqqında geniş tarixi bilgi əldə etmək mümkün olmamışdır. Bununla belə XX əsrin ortalarında və II yarısında Qızıl qəbiləsi içərisindən bahadırlıq dastanının istedadlı xayçıları çıxmış, nəhayət bu dastanın yazıya alınmasında tarixi xidmət göstərmişlər. Qızıl qəbiləsinin xayçıları sırasında Xara Çakım Abdorin, Slo Kadışev, Yeqor Kondeev, Petıx İtemenev və P.V.Sulekovun adları xüsusilə qeyd olunmalıdır. Bunlardan iki sonuncusu- Petıx İtemenev və P.V.Sulekov öz repertuarlarında dastanın adını "İçen,Piçen-iki bacı"olaraq qeyd edirdilər. Əslində İçen,Piçen bacıları "Altın Arığ "dastanının obrazlarından yalnız ikisidir.

## 4.**"Altın-Arığ"**

## bahadırlıq eposunun

## yazıya alınması və nəşri haqqında

**"Altın Arığ" qəhrəmanlıq eposu nəhayət sovet dövründə iki görkəmli xayçı-nımaxçıdan yazıya alınmışdır. İlk dəfə bu dastanı 1955-ci ildə T.Q.Taçeeva o zamanın məşhur xayçı-nımaxçısı Semen Prokopeviç Kadışevdən (1885-1977) -onun söyləyişindən yazıya almışdır. Yazıya alınmış bu variant onun özü tərəfindən əlavələrlə təkmilləşdirilmiş və 1958-ci ildə Abakanda (Ağbanda) "Altın Arığ. Alıptıx nımaxtar." adı altında xakasca çap olunmuşdur. Sonralar bu variant folklorşünaslıqda "Kadışev variantı" adı ilə tanınacaqdır.**

**Poemanın ikinci variantı V.Y.Maynoqaşeva tərəfindən digər görkəmli xayçı-nımaxçı Petr Vasileviç Kurbijekovdan (1910-1966) 1964-cü ildə yazıya alınmışdır.** Kurbijekov variantı, Kadışev variantı ilə müqayisədə həcmcə ikiqat çoxdur- **10341 misradan ibarətdir**. Kurbijekov variantındakı misralar döyüş səhnələrinin, etnoqrafik səhnələrin, at çaparkən dağlar, çöllər, ormanlar, göllər və çayların

mənzərəsinin, ayrı-ayrı mifoloji motivlərin, obrazların xarakterik xüsusiyyətlərinin geniş təsviri hesabına zənginləşmiş və çoxalmışdır. Bununla yanaşı ədəbi-bədii kompozisiyanın, süjet xəttinin, ayrı-ayrı epik səhnələrin, təbiət ricətlərinin bədii-məntiqi rabitəsi, çox nəzakətli və şirin dialoqun, poetik məcazların, şairanə dilin, bədii məqamlarla yüksək poetik sənətkarlıqla uzlaşması, adekvat epizodların emosional-məntiqi bağlantıda təqdim olunması əsərin ədəbi-bədii məziyyətlərini, siqlətini artırmış, qəhrəmanlıq eposuna bəşəri məzmun və fundamental mündəricə dəyəri qazandırmışdır.

Sonralar toplayıcı folklorşünas-alim V.Y.Maynoqaşeva “Kurbijekov variantını”(10341) ruscaya filioloji tərcümə etmiş, “ Altın Arığ. Xakas çonnınq alıptığ nımağı” (“Altın Arığ.Xakas xalqının qəhrəmanlıq dastanı”) adı ilə orjinal mətni, rusca filoloji tərcümə mətnini, kommentariyalar, “Хакасский героический епос «Алтын Арыг»” adlı geniş məqaləsi, kadışev variantı ilə kurbijekov variantının müqayisəli epizodların illüstrasiyası və A.K.Stoyanovun «Искусство хакасских хайджи» (“Xakaslarda xayçı sənəti”) adlı məqaləsi ilə birlikdə 1988-ci ildə Moskvada “Восточная литература” (“Şərq ədəbiyyatı”) nəşriyyatında (519 səh.) çap etdirmişdir.Yeri gəlmişkən xatırladım ki, məhz kurbijekov variantı V.Y.Maynoqaşevanın təqdimatında AMEA Folklor İnstitutunda “Türk Xalqları Folkloru” şöbəsində bu sətirlərin müəllifi tərəfindən Azərbaycan dilinə xakascadan tərcümə edilmiş, 4000 min misralıq bir hissəsi, ilk dəfə-2009-cu ildə dərc olunmaq üçün “Dədə Qorqud” dərgisinə verilmişdir. “Dədə Qorqud” elmi-araşdırma toplusunun 2009, 3-cü, 2009, 4-cü, 2010, 1-ci saylarında Xakas-Azərbaycan ədəbi-elmi əlaqələri tarixində ilk dəfə olaraq parça-parça dərc edilmişdir.Təxminən, 2500-misrası da həmən toplunun sıradakı saylarında dərc olunması üçüçn redaksiyada hazırlanır. Əslində “Altın-Arığ”ın dərc edilməsi ilə Xakas-Azərbaycan mədəniyyət və elmi əlaqələrin əsası qoyulmuşdur. Belə ki, kurbijekov variantı bu vaxta qədər ruscadan başqa heç bir dilə tərcümə olunmamışdı.Onu da qeyd etmək vacibdir ki, Xakas qəhrəmanlıq eposunun Azərbaycan dilinə tərcüməsi “Türk Xalqları Folkloru”şöbəsində icra edilmişdir. Eposun Azərbaycan dilinə

tərcüməsi Folklor İnstitutunun direktoru f.e.d. professor Hüseyn İsmayılovun razılığı və təşəbbüsü, həmçinin "Türk Xalqları Folkloru"şöbəsinin müdürü f.e.n. Əfzələddin Əsgərin təklifi ilə Elmi Şuranın qərarı üzrə İnstitutun iş planına daxil edilmişdir.Epos orjinal mətnlə birlikdə nəfis şəkildə Akademiyanın maliyyə dəstəyi hesabına nəşrə hazırlanır.

Xakas türklərinə aid olan bu eposun Kadışev variantı isə qeyd etdiyimiz kimi T.Q.Taçeeva tərəfindən 1955-ciildə yazıya alınmış və 1958-ci ildə Ağban (Abakan) şəhərində çap edilmiş, əlavələr və təkmilləşdirilmiş şəkildə isə təkrarən **5181 misradan** ibarət olaraq, 1987-ci ildə paytaxt Ağban (Abakan) da nəşr edilmişdir.Kadışev variantı da ilk dəfə xakascadan xarici dilə- Türkiyə Türkcəsinə Qazi Universitetinin professoru, filalogiya doktoru Fatma xanım Özkan tərəfindən tərcümə edilmiş, orjinal mətnlə birlikdə, geniş məqaləsi, dastan mətninin lüğəti, Hoca Ahmet Yasevi Uluslararsı Türk-Kazak Universitesi Mütevelli Heyeti Başkanı Namık Kemal Zeybekin "Təqdim" məqaləsi ilə "bilgi"Yayınları tərəfindən 1997-ci ildə Ankarada nəşr edilmişdir.

"Altın Arığ. Алтын Арыг." adı ilə çap edilən dastan onu hazırlayan Fatma xanım Özkan tərəfindən "Giriş" və 3 (üç) bölümə ayrılmışdır. "Giriş"-də "Hakas Türklərinin tarixi", I bölümdə Hakas Dastanlarının Təşəkkül dövrü və Dastanlardaki tarixi mərhələlər, Hakas Dastan Anlatıcıları, Altın-Arığ Dastanının motivləri, II bölümdə Altın-Arığ Dastanının özeti, Hakas Türkcəsinin səs özəllikləri, III bölümdə isə tərcümə edilmiş Mətn, Sözlük, Altın Arığ Dastanının Kiril hərfli mətni yer almışdır. Beləliklə, kadışev variantı (5181 misra) Türkiyə türkcəsinə, kurbijekov variantı isə (10341 misra) Azərbaycan türkcəsinə çevrilmişdir. "Hakas dastanlarının təşəkkül dövrü və dastanlardakı tarixi təbəqələr" məqaləsində Fatma Özkan dastanın təşəkkül dövrü ilə əlaqədar olaraq qeyd edir ki, "Hakas dastanları ilə əski runik hərfli Göy Türk və Yenisey yazıları, dil,üslup və ideal baxımından paralellik ərz etməkdədir. Bu səbəbdən Hakas qəhrəmanlıq dastanlarının təşəkkül tarixi Göy Türk çağın öncəsinə

gedib çıxar.” Fatma Özkan xakas qəhrəmanlıq dastanlarının başqa mötəbər tədqiqatçısı M.A.Ungvitskayaya istinad edərək, təşəkkül tarixini “Taqar-Taştık dönəminə qədər ”götürməyin mümkün olduğunu həmən məqaləsində qeyd etmişdir.

## 4. Altın-Arığ və başqaları...

“ Altın – Arığ ” bahadırlıq eposu üç alp-bahadır nəslinin həyatı və mübarizəsindən, vətən sevgisindən , doğma suya və doğma torpağa bəslədikləri sonsuz məhəbbətindən, düşmənə, işğalçı yadellilərə sonsuz nifrətindən, hiss və həyacanından danışır ;

**1) Qadın bahadır Pis-Tumzux-Plö-Xarın-Xuu-İney və onun oğlu Xulatay ;**

**2) Altın-Arığ və onun daşdan doğulmayan bacısı; Qız Xan.**

**3) Altın-Arığın oğlu gənc bahadır Taptaan-Molat.**

Dastanda Alıp-xan ölkəsinin varisi olan altı yaşlı oğlanı onların ailəsinin vassalı olan Altın-Seyzenin qızları- Piçen-Arığ və İçen-Arığ öldürürlər. Halbuki bu iki subay qız-iki bacı altı yaşlı oğlana baxmalı, onu bəsləməli, ona xidmət etməli,ən azı yeniyetmə yaşa qədər və ya ömürlük onun qulluğunda durmalı idi. Əlbəttə bu cinayəti, xain hərəkəti daha çox kiçik bacı – Piçen-Arığ edir. İçen-Arığ daha çox ev işləri ilə məşğul olur. İçen-Arığ həlim, mülayim, sakit, xoş rəftarlı, qardaşı altı yaşlı oğlanın acı taleyinə ürək yandıran bir gənc qızdır, ancaq bu yaxşı qız (xıs çaxsı) təbiətən qorxaqdır. O həm öz doğma kiçik bacısına həm də Alıp-xanın kiçik oğluna ana şəfqəti, ana mərifəti, ana qayğıkeşliyi göstərir. Piçen-Arığsa Alıp-xanın ulu yurduna, xalqına, naxırlarına, ilxıları- na,sürülərinə, torpağına ,suyuna, tayfasına ,

xalqına tamah salıb, onu ələ keçirmək,  sahib çıxmaq, Xan, Bəy olmaq istəyir. Əslində ölkə, xalq, taxt-tac vərəsəlik hüququ ilə altı yaşlı oğlana verilməlidir. Əslində türk tarixi gerçəkliyi ailə ənənəsinə və qəbul edilmiş sosial qaydalara görə irsən ötürülən ciddi sistemə tabedir. Obrazlaşan bu tarix bədii məziyyətlər kəsb etmiş, həyat həqiqətinin bədii təsvirinə sadiq qalaraq, folklora daxil olmuş, oradan epik motivlərlə dastan şüuruna transormasiya olunmuş, dastan kompozisiysına ədəbi-bədii baza yaratmışdır.  Piçen – Arığ müvəqqəti hakimiyyətdən, altı yaşlı oğlanın hələ kiçik olmasından sui-istifadə etmək, taxt-tacı ələ keçirmək  üçün ağır cinayətlər törədir, əvvəl altı yaşlı oğlanı öldürür, sonra Ağ Qayada daşdan saf tanrı ruhundan doğulan Altın-Arığı , onun yenə orada Ağ Qayada daşdan doğulan səma-göy cinsli, doqquz qulac boyu olacaq, saf qanlı Ağ sabdar atını öldürür, sonra ölkəni viran qoyur, yer altında gizli dəfinələri talan edir, Sarı-xan oğlu Saatay – Mirqeni aldadır, ona tilsim-cadu yolu ilə, cin üsulu ilə ərə gedir, xalqın malını-mülkünü əlindən alır, onların yaşadığı aulları-kəndləri dağıdır, nəhayət, öz doğma xalqını əsir edir, onları malı-heyvanı ilə birlikdə zorla, getmək istəməyənləri öldürməklə zülm edib, sürüb, uzaq Saatay-Mirqen ölkəsinə əsarətə aparır. Dastanı söyləyən xayçı-nımaxçı bu faciəli hadisələri söyləyərkən özü hadisələrin dəyərləndirməsinə bitərəf qalır, öz şəxsi mövqeyini bildirmir, kübar-zadəgan ailə əxlaqına sadıq qalır, bu əxlaq və davranış qaydalarına hörmətlə yanaşır, onları heç vaxt təhqir etmir, əksinə, yaxşı qız ( xıs çaxsısı, hərfi tərcümədə- qızların ən yaxşısı), gözəl – göyçək, qəşəng qız ( arığ - siliq), yaxşı adam (xıs kizi; hərfi tərcümədə - qız adam), qorxmaz, cəsur və digər bu kimi epitetlərdən onların ünvanına gen-bol  istifadə etmişdir. V.Y.Maynoqaşeva bu tipli bədii ifadə vasitələrindən, məcazlardan istifadə etməyin epik ənənədən gələn poetik klişe olduğunu qeyd etmişdir. Dastanın diqqət çəkici bir hissəsi də qadın - alp Pis-Tumzuxun həyatını, dağılmış-xarabazara çevrilmiş ölkəsində yaşadığı iztirablarını, oğlu ilə rastlanmasını, öldürülmüş Altın-Arığı və onun Ağ-Sabdar At olacaq səmavi qulununu canlandırmasını,  mübariz vətən sevgisini, daşdan ecazkar-möcüzəli bir hadisə olaraq doğulması və orada-yenidən daşın içərisində

ölməsini əks etrdirən parçalardır. Pis-Tumzuxun, Altın-Arığın və onun ipək yallı Ağ-sabdar atının Ağ Qayadan doğulmasını əks etdirən süjetləri totemizm dövrünün mifik təsəvvürləri və inancları ilə bağlanır. Daşın yaradıcı, törə, əcdad-ana kimi təsəvvür edilməsi daş kultuna aid düşüncələrin sonralar qədim və ilkin orta əsrdəki ictimai-mədəni fikir və bədii mülahizələrlə, əsatir inancı və estetik mündəricə ilə qaynayıb-qarışması nəticəsində zəngin poetik lövhələr, bədii təsvirlər, dağların füsunkar fonunda romantik mübarizələrlə dolu idillik bir həyat əbədi yaşar dağ-daş sevgisindən Ana Vətən , Ana Torpaq, Ata Yurdu məhəbbətinə ictimai-fəlsəfi məzmun vermişdir. Dağ-daş kultunun günümüzə uzanan dayanıqlı inanc duyğusu, törə dünyagörüşü, xakas-türk insanının vətən sevgisinin mənəvi-psixoloji və sosial-ideoloji qaynağını oluşdurmuşdur. Pis-Tumzuxun dərin faciə faktı ilə üz-üzə qalması dastan janrının nəzəri imkanlarını səciyyələndirir və xalqın həyatında baş vermiş tarixi faciəvi gerçəkliyin folklor mühitinə transformasiya olunmuş epik adekvatıdır.

Dastanın mərkəzi, əsas süjeti şübhəsiz, baş qəhrəman olan alp-qız Altın-Arığın epik bioqrafiyasından ibarətdir. Eposun əsas qəhrəmanları qadınlardır.Təbii ki, bu siyahının önündə Pis-Tumzux-Plö-Xarın, Altın-Arığ, Qız Xan gəlir. Bununla belə demək olmaz ki, əsər matriarxat münasibətləri təsvir edir. Ümumiyətlə matriarxizm sosial status verən formasiya kimi türk və ya prototürkün antik həyat-məişət mədəniyyəti üçün xarakterik deyildir. **Hər halda biz “Altın-Arıq” da, “Kitabi-Dədə Qorqud”da,”Ural Batır”da, “Manas”da, “Nart”da, “Koroğlu”da,”Alpamış”da, hətta şumerlərin “Bilqamış”ında belə sosial həyatın qadın başlanğıcını-matriarxizmi görmürük** Bir tayfada Ana üstünlüyünə, digər tayfada Ata üstünlüyünə rast gəlirik Hər halda aldığımız dastan informasiyasında bunun bariz nümunəsinə rast gəlmirik. Tərəfimizdən tərcümə edilən “Altın Arığ”dastanında da belə epik epizodlar və səhnələr vardır. Maraqlıdır ki, Türk epik ənənəsində Ana və Ata başlanğıcı xususilə bahadırlıq dastanlarında ideoloji-siyasi üstünlük bilavasitə maddi-mənəvi gücdən qidalanır, şəxsi qabliyyətdən, xeyirli əməllərdən başlayır. Məncə, matriarxizmi bir mağarada qadın hakimiyəti kimi başa düşmək lazımdir,mağara

hakimiyəti isə ictimai-iqtisadi atributları ehtiva edib, cəmiyəti dövlət təşəkkülünə, sistemli bir formasiyaya götürə bilməz.Svilizasiyaların, ictimai-iqtisadi formasiyaların, mədəni şüur və idrak formalarının, təfəkkür mərhələlərinin dəyişməsi və təkamülün enerji mənbəyini yaradılışın dual baxışlar sistemində axtarmaq lazımdır.  Altın-Arığın və onun atı Ağ-Sabdarın Ağ-Qayadan doğulması, onun öldürülməsi, yenidən Pis-Tumzux vasitəsilə epik inisiasiya vasitəsilə həyata qayıtması,dirilməsi, Çibetey-xanın məmləkətini ələ keçirmək istəyən xanlarla onun mübarizəsi, Xannıq-Xılısla dostluğu, dəfələrlə öz xalqını, qəbiləsini işğalçı xanlar və bəylərdən xilas etməsi, bacısı ilə münasibətləri, bacısına kömək etməsi, Tamı-xanı məğlub etməsi və s. və il. epizodlarda qəhrəmanın epik tərcümeyi-halının təsvirləri süjetin maraqlı, dinamik, bədii məqamlarıdır.Bu qəhrəmanlığa bir cəngavərlik ruhu hakimdir, Altın-Arığın mübarizəsində vətənpərvərlik qayəsi ideoloji-siyasi axtarışlar üzərində qurulmur, daha çox fərdi qisas və intiqam duyğy və düşüncələri üzərində qurulmuşdur. Bütün bunları Altın-Arığ tək edir, bəzən bir cindən qisas almağa gedərkən təsadüfən yolda ədalətsiz bir döyüşə rast gəlir, o, burada döyüşür, məsələni ayırd edəndən sonra yoluna davam edir, ancaq epik Altın-Arığın gücü tükənəndə ona qeybdən kosmik enerji təlqin edilir, sanki o, uzaqdan nəzarətdədir, gücü bitəndə ona yeni kosmik ilham verilir,bu poetik işarə peyğəmbərlərə verilən vəhy koduna adekvatdır. Altın-Arığ obrazinin əsas qiymətli cəhəti odur ki, bu  gənc alp- qız butun şüurlu həyatını , fəaliyyətini yalnız doğma vətənin keşiyini çəkməyə, onu əti, qanı, canı hesabına qorumağa həsr etmişdir. Əslində o, bu vəzifə üçün qayadan-daşdan Tanrı ruhundan doğulmuşdu. Demək o, qayadan aldığı qermetik gücü və biliyi özü ilə yer dünyasına hazır gətirmişdir. Başqa sözlə, o, qayadan nahaq yerə doğulmamışdı. Qermetik biliyin sirri gənc alp qıza məlum idi. Gənc Altın-Arığ həm öz xalqını, həm xalqına məxsus malı-mülkü, həm dövlətini, həm mənəviyatını, həmçinin özünün, oğlunun və bacısının namus və şərəfini qoruyur. O, bunları edərkən heç kimdən- heç nədən qorxmur, çəkinmir. Altın-Arığın güclü düşməni Tam-xanla vuruşması, onunla şiddətli döyüşlərə girməsi, onu böyük çətinliklə məğlub etməsi, xalqını azad etməsi, xalqını öz ilxıları

və naxırları ilə birlikdə vətənə gətirməsi dastanın əsas mövzusudur. Başqa bahadırliq-qəhrəmanlıq nəğmələrində və dastanlarında baş alp-qız qəhrəmanlar ya sevgiləri uğrunda qara maqik təsirlə ölürlər, ya sehrlə ayrılıb iztirabdan ölürlər, ya da mifik süjetin tələblərinə tabe olaraq vaxtları çatdığı üçün olümə məhkum olurlar. Dastan poetikası üçün ənənəvi epik şablon "Altın-Arığ"da fərqlidir. Altın-Arığ saysız-hesabsız mifik süjetlərdən, kosmoqonik güc və məqamlardan, astral təsirlərdən, qara-maqlı fitnə-fellərdən qeyri-adi insani dözüm göstərərk keçir, ölmür. Ancaq epik Altın-Arığı başqa dastan qəhrəmanlarından fərqləndirən cəhət məhz budur ki, o vətənin azadlığı uğrunda işğalçılarla şüurlu şəkildə döyüşərək halak olur. Altın-Arığın işğalçı-qara qüvvələrlə vuruşması mifik-fəlsəfi yöndən xeyirxahlığı pozub dağıdan, səadəti və xoşbəxtliyi qanda boğan Şər qüvvələrlə, cin İrliklə mübarizəni səciyyələndirir. Altın-Arığ vətən sevgisinin, vətənə məhəbbətin, alternativsiz epik-bəşəri rəmzinə çevrilmişdir. Əgər biz real həyat meyarı ilə insan taleyini ölçə bilsək, görərik ki, gerçəkdə insan yalnız öz doğma vətənində xoşbəxt ola bilir. Doğma atanın, ananın, bacı və qardaşın, övladların yanında, doğma evdə-ocaqda insan öz xoşbəxt taleyinə qovuşa bilər. **Altın-Arığın anlayışında, Millət bir ailədir, Vətən o millətin, xalqın müqəddəs, toxunulmaz Evidir.** Gənc alp –qızın, Altın-Arığın kişilik və qəhrəmanlıq hünəri, xarakteri yol boyu ona rast gələn, alp- Xulatayla, alp-Xan-Tibet-xanla, alp-Pora-Ninçi ilə, Kilet-xanla görüşlərində səhnədən səhnəyə dəyişir, **gənc və əfsanəvi gözəl qız böyüyür, şəxsiyətə sonra isə romantik xalq qəhrəmanına çevrilir.** Ağac bar gətirdikcə başını aşağı əyər- bu əxlaq meyarı saymazyanalıqla pozulduqda yəqin ki, dayaz insana və ya iblisin-şeytanın qılığına girib aldatdığı insana həm şəxsi , həm sosial planda ağır zərbələr dəyəcəkdir, bəlkədə ibrət dərsi olsun deyə, göydən sənə bəla gələcəkdir. Altın-Arığ yer insanına məxsus psixoloji xüsusiyyətləri getdikcə daha çox mənimsəyir, yəni göylərdən güc alıb böyüdükcə, şöhrətləndikcə, özündən razı hallar yaşayır.Tanrının yasaq etdiyi əmələ baş qoşan kimi Altın-Arığ həm maddi, həm mənəvi gücdən düşür. Düşmənin gücünü düzgün hesablamır, öz ağlında olmur,araçon-şərab içib sərxoş vəziyyətə düşür, sadələşir-adiləşir, öz

səmavi sirrini arxayınlıqla, sadəlövhcə düşmənə açır, düşmən cadugər qadın Pora-Ninçi isə onun özünün və atının ruhu, “ kut”-u gizlənən uzaq dağlardakı- Ağ –sın dağının zirvəsində gizli saxlanan Qızıl Qayada bitən qızıl yarpaqlı Əbədi Yaşıl Ağacdakı Qızıl Quşun yerini öyrənir, Qızıl quşu tapır və öldürür, sonra Altın-Arığ və onunla bərabər atı Ağ-Sabdar da ölür.Dastanın mifik arxetipi totemizm dövründən sıyrılıb gələn inanc ünsürlərini şamanizmlə qovuşdurmuş, dastan strukturu üçün epik janr bazası yaratmışdir. Dastanın epik bazasına ilkin orta əsrlərin mifopoetik şüuru, folkor mühütünün ünsürləri də daxil olmuşdur. Altın-Arığın oğlu Taptaan-Molat surəti Xeyirin rəmzi-poetik, bədii-romantik davamı və inkişaf xətti kimi eposa daxil olur. Obrazın rəmzi-fəlsəfi mənası budur ki,Xeyir Ruhu- Kut ölməzdir. Taptaan-Molatın anası Altın-Arığın qisasını almaq üçün işğalçı-düşmənləri olan Kilet-xanla və onun cadugər arvadı Pora-Ninçi ilə vuruşub onları məhv etməsi əbədi-əzəli mübarizədə xeyrin şər üzərində romantik qələbəsini şərtləndirir, özünəməxsus bədii üslubda simvolizə edir, dinləyici və ya oxucu Xeyir Ruhun qələbəsinə, mütləq xoşbəxtliyin gəlcəyinə inanır. Altın-Arığın oğlu Taptaan-Molat onun dabanından doğulur, müvafiq olaraq, onun atı Ağ-Boz At da Ağ-Sabdar atın dirnağından doğulur. Bu ecazkar-möcüzəli hadisələr Qız Xanın gözü qarşısında göydən enən nura bükülmüş ağ saqqal bir Qoca tərəfindən icra olunur. Bu Qoca KDQ-nin “Buğac boyunda”gördüyümüz Xızır obrazının adekvatıdır. Dastanda epik qocanın adı bilinmir, o sadəcə Ağ saqqal qocadır. Qoca İrlik-xanı və onun cinlərini lənətləyir və tanrıya yalvarır ki, bir də heç vaxt Altın Arığın oğlu Taptaan-Molat və onun atı Ağ-Boz At, Qız Xan və onun ailəsi, qəbiləsi heç vaxt İrlikə və onun cinlərinə rast gəlməsin. Qoca bu sözləri deyərkən əllərini Göy-xana, mavi səmaya uzadır. Ağ saqqal qocanın duası semantikasına görə kosmoqonik məzmun ifadə edir və alqış xarakterlidir, görünür qoca göy səma üçün etibarlı mələyinmi, şəxsinmi epik adekvatıdır. Bu ictimai formasiyada dəmir yenicə əldə edilmişdir.Dəmir fiziki gücün, qalibiyyətin, yenilməzliyin, sağlamlığın rəmzi obrazıdır.Altın-Arığ düşmənə qarşı dəmirdən son anlarda istifadə etmək qərarına gəlir.Ancaq nəzərə almaq lazımdır ki, bu dünyagörüşü sistemi islamdan ən azı 1000-1500 il öncədir. Bütün

türk dastanları belə fəzavi nikbin enerji və aura ilə yükümlüdür, bəlkədə bunun başqa bir səmavi-irfani səbəbi vardır.

## 5.“Altın-Arığ”-da epik ənənəvi motiv-advermək.

“ Altın-Arığ ” dastanı Azərbaycan oxucusuna tanış gələn epik-poetik motivlərlə doludur. Qədim türk adətlərindən biri olan oğlan uşağına ad vermək motivi “ Kitabi- Dədə Qorqud ”-da , “ Dirsə-xan...” boyundan bizə məlumdur; Dirsə-xan öz oğluna ad vrmək üçün mərasim-tədbir qurmuşdur. Dirsə-xanın gənc adsız oğlu onun üçün , bu tədbir üçün seçilmiş buğanı tutmalı, yıxmalı və öldürməklə ad qazanmalıdır, bu şərti yerinə yetirsə, ad alacaq igid-bahadır olduğunu sübut edəcək, sınaq imtəhanı verəcək,dolayısıyla gənc oğlan astral-maqik gücə sahib olduğunu sübut edir və dəli, qızğın bir buğanı yendiyinə görə oğlana Buğac adı verilir,onu Dirsə-xan oğlu Buğac-deyə cağırırlar. “ Altın-Arığ ”eposunda ad qoyma motivinə baxaq; **Çiçil-xanın oğlu hələ üç yaşında ikən xan öz oğluna ad vermək istəyir.Bunun üçün o, xam bir dayçanı tutmalıdır.Əgər o atasına məxsus ilxıdan onun üçün ayrılmış xam dayşanı seçıb tutsa, ona həm ad verəcəklər, həm də tutduğu at onun olacaq, sonrakı həyatda qazanacağı butun uğurları o məhz tutacağı bu atla birlikdə əldə edəcəkdir. Bu qıvraq üç yaşlı oğlan uşağı atı tutur, gətirib çeçpeyə bağlayır, ona məclisdə Tibet-xan adı verilir.**Məclisdəkilərin ad verməyə başı qarışanda at çeçpedən yoxa çıxır. Artıq Tibet-xan dəliqanlı bir igiddir, dünyanı “ altı dəfə Ay altında yeddi dəfə Gün altında ” gəzib dolaşır öz atını axtarır. Burada at Tibet-xanın səmadan, Göy-Tanrıdan ayrılmış taleyidir. Tibet-xan öz taleyini illərlə axtarır və atı- əslində öz tale payını, bəxtini -“ kut “-unu epik at obrazında tapır. “Altın-Arığ”dastanında və digər bahadırlıq dastanlarda qəhrəman atsız, at isə qəhrəmansız təsvir edilmir. Mədəni qəhrəman epik həyatı boyu atdan həm maddi, həm mənəvi güc alır-bir çox hallarda qəhrəman və onun

atı maddi-mənəvi gücü, “kutu” qarşılıqlı şəkildə biri-birindən alır. Bu güc yetmədikcə, yeni güc dalğası, yeni kut aurası ata və qəhrəmana təlqin edilir. Altın-Arığın mübarizəsində və yadelli düşmənlər-cinlərlə döyüş səhnələrində oxucu bu kimi sehrli halların şahidi olur.

Advermə motivində də mənəvi güclə cismani güc bütün dalğaları ilə qəhrəmana yeni döyüş pafosu verir. Ümumiyyətlə türk epik ənənəsində atla qəhrəman düşmən qrşısında hər zaman bütövləşir, advermə mərasimində qəhrəman əməli həyatı ilə adını qazanır sonra həyatı boyu öz adını doğrultmağa çalışır.Türk düşüncəsində ad sözdür; söz məzmununda kutsal semantika ifadə olunur, çünki söz Göy-xandan, Tanrıdan, səmavi enerjidən gəlir.Yerdə sözü deyən şəxs isə şamandır-KDQ-da sözü deyən əcdad-törə ruhunu-kutu təmsil edən Dədə Qorquddur.”Altın-Arığ” da isə ad verən, sözü deyən Pis-tumzuxdur.Pis-Tumzux totem-əcdad, totem-törə ruhunu təcəssüm edir.Demək, sözü-qəhrəmanın adını kutsal edən əsas şərt budur; a) ad səmavi xarakterlidir; b) adı verən şəxs isə öz dövrünün peyğəmbərliyini təcəlla edən şamandır.Bu iki səbəbdən epik qəhrəmanın adı onun tale yoluna təyin edici təsir bağışlayır.Məsələn, “Altın-Arığ”dastanında Altın-Arığın və onun atı-Ağ-Sabdarın adları səmavi xarakterlidir. Onlara yerdə şaman ad verməmişdir.

” Kitabi- Dədə Qorqud “ dastanının başqa bir boyunda, “ Qanlı Qoca oğlu Qanturalı” boyunda Göy-Tanrıdan gələn səmavi sınaq motivi Buğaca nisbətən daha mürəkkəb epik səhnədə cərəyan edir. Qanturalı Təkurun qızı Selcan-xatunu almaq istəyərkən qızın atası Qanturalın qarşısına şərt qyur; o, əvvəl Buğanı yıxmalı,öldürməli,başını kəsməli,sonra aslanı, daha sonra qızmış dəvəni öldürərsə, yalnız sonra o, qızı ala bilər. Bu inisiasiyanın başqa formasıdır. Qəhrəman üç dəfə sınağa çəkilir- bu,üç dəfə ölüb-dirilməyə adekvatdır. Üç sakral rəqəmdir. Üç rəqəmi üç qatlı dünya modelini ehtiva edir; göyün üstü, göyün altı (yerüstü) və yeraltı dünya.Buğacın buğanı öldürməsi- bir dəfə sınağa çəkilməsi ilə işini bitirməsi daha arxaik motivdir.Çox ehtimal ki, bu motiv Bilqamışın Səma Buğasını öldürməsi hadisəsindən qaynaqlanır, çünki, mifopoetik şüurun təzahürü həm model olaraq

eynidir, həm də sosial-psixoloji stastusu təfərrüata varmasaq eynidir.Əksini də düşünmək olar.Buğacın buğa öldürməsi ilə Bilqamışın buğa öldürməsi eyni tarixi zamanın epik motivləri də ola bilər.Bəlkədə "Buğac" oğuznaməsinə bu və ya başqa meyarla yanaşsaq, oğuznamənin mifik nüvəsinin təşəkkül dövrü Bilqamışdan daha əski çağlara, b.e.ə.VI-V minilliyə dayanacaqdır. Epik şüurun induktiv model əsasında formalaşdığını qəbul etsək, Buğacın buğanı öldürməsi zəminində  poetik-romantik motiv qismən sadədir, ancaq Bilqamışın buğanı öldürməsi səhnəsi qismən zəngin və daha mükəmməldir.Burada epik evalyusiya göz önündədir. Məhz bu aspektdən düşünürəm ki, Buğacın epizodu, Bilqamışın epizodundan bir-neçə min il daha qədimdir. Hər halda,advermək motivləri eyni mifik sistemin mərhələlərindən xəbər verir.  Burada mifoloji şüur qaynağının eyni etnoğenetik yuvadan gəlməsi ciddi maraq doğurur.Burada şumerlərin etnogenetik mənşəyini, milli mənsubluğunun türk kimliyinə dayanmasını müşahidə edirik. Qanturalın üç heyvan öldürməsi-üç dəfə sınağa çəkilməsi-ictimai münasibətlərin daha kəskin bir forma alması, ictimai həyatda  baş verən təzadlar və ziddiyətlərin, konfliktlərin müharibə xarakteri almsı, patriarxal tayfa-ailə əlaqələrinin və şamanizmin zəifləməsi, dağılması sosial statusu daha etibarlı, daha güclü-yenilməz şəxslərə həvalə etməyi şərtləndirirdi.Artıq Qanturalının zamanında sosial ziddiyətləri həll etmək üçün bir Buğacın gücü yetərli deyldir.      Buğacın ad almaq üçün buğanı öldürməsi ilə Qanturalın buğanı və ya aslanı, qızmış dəvəni öldürməsi arasında mahiyyətcə heç bir fərq yoxdur; hər iki epik qəhrəman astral-kosmoqonik sferaya daxil olduğlarını, Göy –Tanrının  cismani-mənəvi mifik sınağından keçməli, ad almaqla igidlik rütbəsinə yüksəlməli idi, başqa sözlə onların göylə bağlantıda olduqlarına özlərinin də inanmaqları  sübut olunmalı idi, onlar üçün  səmadan ayrılmış tale-fatal sirrlərini onlar dərk etməli, səmadan enəcək  " kut " informativ- kosmoqonik kodunu öz auraları daxilində  deşifrə etməliydilər.İgidin və atın tale yazısı (Ağ-sabdar at, Qır at, Dür at və s.) eyni aura içində, eyni motivdə bütövləşməklə şərtlənir. (12) ." Koroğlu " dastanının gürcü variantında atası Alı-kişi Koroğluya altı ayaqlı atı tutmağı tapşırır.Əgər o, atı tutsa at onun

olacaq.Koroğlu atı tutur, atası atı ona bağışlayır və atı beş il yerin altında-yenə eyni qaranlıqda- xaosda- saxlamğı tövsiyə edir.(13) Burada ata kainatda onlar üçün ayrılmış gizli səma sirrləri-kut ruhu təlqin ediləcəkdi.

Koroğlunun Xəzər gölünün o tayindakı variantında mifik gorda-məzarda, qaranlıq xaosda doğulması (gor oğlu), onun atının qaranlıq tövlədə- işıq sızmayan yerdə - qaranlıq xaosda tam qırx gün bəslənməsi, sirli-sehrli dəryada doğulması ilə Altın-Arığ və onun atının daşdan- qaranlıq xaosda- doğulması arasında mifik-epik bağlar, ayrıntılar və adekvat özəlliklərin olması eposdan özünü diktə edir.Doğrudur, Ağ-Qayanın içi işıqlıdır, amma bu işıq sadə insanın anlaya biləcəyi işıqdan deyildir, tamamilə başqa- ruhun ecazkar işığıdır. “Koroğlu”dastanındaki bir çox mifik motivlərin “Altın-Arığ”-la bənzərlik və ayrıntılarına Fatma xanım Özkan “Altın-Arığ” dastanının motivləri” məqaləsində toxunmuş,yeni maraqlı elmi- araşdırma mövzusuna qapı açmışdır (14). Türk dastan yaradıcılığı üçün mifo-poetik motivlərin bənzər paralelliyi soy kökü və qan-süd ümumiliyinin ortaq tarixiliyindən, dastan yaradıcılığının epik ənənəvi nüvəsindən və üzvlənmiş ortaklığından qaynaqlanır.

Xakas tayfalarının folklor özəllikləri bir çox süjet və mövzuların ümumiliyində ifadə edilsədə, hər tayfada özünə xas irili-xırdalı əsərlər şifahi palitra müstəvisinə yeni rəng əlavə edir, yeni çalar qazandırır. Bu planda “ Altın – Arığ ” göy qurşağının rəng çalarlrı ilə, butöv epos halında əsasən Kızıl tayfasının ağlında hifz edilmiş,qorunub saxlanmışdır.

**Kızıl qəbiləsinə mənsub bu söyləyicilərin Xara Matpıy Blaxçın (XIX əsrin sonu XX əsrin I rübü), sonra Nestü adlı bir xanım, Xara Çakım Abdorin, Slo Kadışev, Yeqor Kandeev, Petıx İtemenov, P.V.Sulikova,Semyon Prokopyeviç Kadışev (bu Slo Kadışevin qardaşı oğludur) və Pyotr Vasilyeviç Kurbijekovun istedadı və qabliyəti sayəsində** zamanımıza gəlib çatan epos kosmaqonik təsəvvürlər, mifoloji süjetlər, ağ və qara maqlı-qamlı əməllər, insani duyğuların ehtizazı və coşqunluğunu göstərən geniş bədii lövhələrin

təsviri ilə yanaşı, atların təbiəti haqqında , cinsi və xarici görkəmi haqqında, döyüş qabliyətləri, öz igid sahiblərinə etdikləri yardımlar haqqında epik səhnələri təsvir etməklə geniş bilik və məlumat almaqdayıq.Söyləyicilərin həyatı, fəaliyəti, eposu təbliğ etmək metodları ayrıca bir elmi araşdırma mövzusudur. Bu mövzuda T.Q.Taçeeva, B.Y.Maynoqaşeva,M.A.Unqivitskaya və digər araşdırmaçılar irili-xırdalı məqalələr və kitablar yazmışlar.

Dastanın Kadışev və Kurbijekov variantlarının müqayisəli təhlili, hər iki variantın dil-üslub xüsusiyətləri, məzmun və ideya – möndəricə fərqləri, kompazisiya- struktur fərqlərinin təhlili, kosmoqonik, mifoloji, astral-maqik, xeyir və şərin epik –fəlsəfi, ədəbi-bədii təsvir xüsusiyətləri və analizi, **“ Altın-Arığ ”**, eposunun bizim **“ Kitabi-Dədə Qorqud ”-la, şumerlərin “ Bilqamış”, bizim “ Koroğlu ”, altayların “ Maday Qara”, qırğızların “ Manas ” və tatar-çuvaşların “Akbuzat”, “Edigey”**, **qaraçay-balkar-alan-osetinlərin” Nart”** və digər türk dastanları ilə müqayisələr, paralellər aparmaq üçün, elmi araşdırmaya cəlb etmək istəsək onlarla monoqrafiya, namizədlik,doktorluq, dissertasiyalarına material verməkdədir. Qeyd etmək lazımdır ki , ümumtürk milli- ictimai birlik şüuru konsepsiyasından yanaşdıqda ” bizim-sizin ” ayrıntısı, sırf şərti səciyyə ifadə edir. Əslində bütün Azərbaycan folkloru bütün Türk Dünyasının və bütün Türk Dünyası folkloru o cümlədən Xakas xalqının şifahi ədəbiyyat nümunələri də Orxon-Yenisey abidələri kimi Azərbaycan folklor xəzinəsinin ortaq-müştərək mənəvi mirasıdır.

Ədəbiyyat siyahısı

1.Feyzulla Budak. Orta Asya mektupları, Ankara, Dəmir təpə “ Sevinc ”mətbəəsi,1998, səh.5.

2.Ahmet Caferoğlu. “ Abakan türkleri ” (Hakaslar). Türk kavimleri. Ankara 1983, səh 11.

3.bax; V.V.Radlou.10 cilddə,” Obrazçov narodnoy literaturı tyurkskix plemyon” (Türk tayfalarının xalq ədəbiyyatı nümunələri);

Həmçinin bax; “Obrazçı narodnoy literaturı tyurkskix plemyon jivuşşix v Yyjnoy Sibiri i Djunqarskoy stepi”( Cənubi Sibir və Cunqar çöllərində yaşayan türk tayfalarının xalq ədəbiyyatı nümunələri)

4.bax; N.A.Aristov.” Opıt vıyasneniya etniçeskoqo sostava kirqiz-kazakov i karakirqizov, na osnovanii rodoslovnıx skazaniy i svedeniy o suşşestvuyuşşix rodovıx deleniyax i o rodovıx tamqax, a takje istoriçeskix dannıx i naçinayuşşixsya antropoloqiçeskix issledovaniy ”(1890) ( Böyük Ordaya mənsub qırğız, qazax və qaraqırğızların xalq rəvayətləri və məlumatlarına əsaslanan şəcərə üzrə etnik tərkibini araşdırmaq təcrübəsi, həmçinin mövcud soy bölgüləri və soy damğaları eləcədə başlanmaqda olan antropoloji tədqiqatlar haqqında ), həmçinin bax; “Zametki ob etniçeskom sostave tyurkskix plemyon i narodnostey i svedeniya ob ix çislennosti ”( Türk tayfalarının və xalqlarının etnik tərkibi və onların sayı haqqında qeydlər )

5.bax;Q.N.Potanin. 4-cilddə; “ Oçerki Severo-Zapadnoy Monqolii” ( Şimal-Qərbi Monqolustan haqqında oçerklər.)

6.Unqviçskaya M.A., Maynoqaşeva V.Y. Xakasskoe narodnoe poetiçeskoe tvorçestvo, Abakan,1972, səh.49

7.Altin-Arığ.Alıptığ nımaxtar (tpolayanı T.Q.Taçeeva) Abakan,1958.Xakasca.

8.Altın-Arığ. Xakas çonnınq alıptığ nımaxtarı (tpolayanı V.Y.Maynoqaşeva), Moskva, 1988.Xakasca və rusca.

9.Altın Arığ. (hazırlayanı Fatma Özkan). Xakasca və. Türkcə.Ankara, 1977.